UOT 78:37.02

Aygün Əhədova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: aygunahadova@yahoo.com

İNKLÜZİV TƏLİM DÜNYA VƏ AZƏRBAYCAN TƏCRÜBƏSİNDƏ

Açar sözlər: *inklüziv təhsil, şagird, ümumi təhsil, xüsusi şərait*

Əlil uşaqların bir hissəsi istənilən sərt təhsil sistemindən çıxıb gedir. Belə ki, sistem belə uşaqların təhsilə olan fərdi tələbatlarının təmin edilməsinə hazır deyil. İnklüziv yanaşmalar tədrisdə və müvəffəqiyyətin əldə edilməsinə belə uşaqlara kömək edə, bu da onlara daha yaxşı yaşamaq üçün şans və imkanlar yarada bilər.

A.A.Ахадова

ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ В МИРЕ И В АЗЕРБАЙДЖАНЕ

Ключевые слова: *инклюзивное образование, учащийся, общее образование, специальные условия*

Из любой жесткой образовательной системы какая-то часть детей-инвалидов выбывает, потому что система не готова к удовлетворению индивидуальных потребностей таких детей в обучении. Инклюзивные подходы могут поддержать таких детей в обучении и достижении успеха, что даст шансы и возможности для лучшей жизни.

A.A.Ahadova

INCLUSIVE EDUCATION IN THE WORLD AND IN AZERBAIJAN

Key words: *inclusive education, student, general education, special conditions*

From any rigid educational system, some of the disabled children drop out, because the system is not ready to meet the individual needs of such children in education. Inclusive approaches can support such children in learning and achieving success, which will give chances and opportunities for a better life.

Təhsilin insanın yetişməsində, dünyagörüşünün artmasında, cəmiyyətə yararlı fərd olmasında böyük rolu var. Bir ölkənin təhsilinin güclü olması, onun gələcəyinin uğuru deməkdir. Bir millətin gələcəyi isə onun təhsilindən asılıdır. Təhsil almaq hüququ respublikada yaşayan bütün vətəndaşlara şamil olunur. Azərbaycan Respublikasının Təhsil haqqında qanununda da qeyd olunub ki, cəmiyyətin bütün üzvlərinin – istər sağlam, istərsə də sağlamlıq imkanları məhdud insanların bərabər təhsil alma hüquqları var.

Lakin ölkəmizdə sağlamlıq imkanları məhdud olan uşaqların sağlam uşaqlarla birgə təhsildən yararlanması problemli məsələdir. Belə bir imkanı yalnız inklüziv təhsil yarada bilər. Sağlamlıq imkanları məhdud uşaqların təhsil və tərbiyəsi – orta ümumtəhsil məktəblərinin diqqət mərkəzində durmalıdır. Xüsusi qayğıya ehtiyacı olan bu uşaqların normal vətəndaş və şəxsiyyət kimi formalaşmasında elmin, təhsilin və tərbiyənin rolu böyükdür.

İnklüziv təhsil (latınca "include" – daxil etmək, fransızca "inclusif" – özünə daxil olunan) termini xüsusi tələbatları olan uşaqların kütləvi ümumtəhsil məktəblərində təhsil alması prosesini nəzərdə tutur. İnklüziv təhsilin əsasına belə bir ideologiya qoyulur, hansı ki, uşaqların istənilən diskriminasiyasını mümkünsüz edir, bütün insanlara *bərabər münasibəti* təmin edir, lakin xüsusi ehtiyacları olan uşaqlara *xüsusi şəraitləri yaradır*. İnklüziv təhsil – ümumi təhsilin inkişafı prosesidir ki, hamı üçün, o cümlədən də sağlamlığında problemləri olan uşaqlar üçün təhsilin mümkünlüyünü nəzərdə tutur.

İnklüziv təhsilin əsas prinsipləri aşağıdakılardır:

- uşaqlar evlərinin yaxınlığında yerləşən yerli uşaq baxçasına və ya məktəbə getməlidir;
- bütün xüsusi tələbatlara ehtiyacı olan uşaqlar baxçalarda yer almalıdır;
- məktəbdə və sinifdə əlverişli inklüziv mühüt yaradılmalı, bütün uşaqlar bütün tədbirlərdə (müsabiqələrdə, tamaşalarda, ekskursiyalarda və s.) iştirak etməlidir;
- uşaqların fərdi təlimi müəllimlər, valideynlər və yardım göstərə bilən hər bir şəxslər tərəfindən aparılan birgə iş ilə təmin olunmalıdır;
- düzgün təşkil olunmuş inklüziv təhsil uşaqların diskriminasiyasının qarşısını almalı və xüsusi ehtiyacları olan uşaqlara cəmiyyətin bərabər hüquqlu üzvü kimi çıxış etməyə yardım etməlidir.

İnklüziv təhsil sistemi özünə orta, peşə və ali təhsili daxil edir. Onun məqsədini maneəsiz təlim mühitinin yaradılması təşkil edir. Bütün tədbirlər kompleksi həm təhsil ocaqlarının texniki təchizatını, həm də müəllimlər və sağlam şagirdlər üçün xüsusi təlim kurslarının işlənib-hazırlanmasını nəzərdə tutur ki, onların əlil uşaqlar ilə qarşılıqlı əməkdaşlığını inkişaf etdirsin. Bundan əlavə, əlil uşaqların ümumi təhsil ocağlarında adaptasiya prosesinin asanlaşdırılması üçün xüsusi proqramlar lazımdır.

1970-ci illərdən xarici ölkələrdə əlillərin təhsil imkanlarının genişlədirilməsinə yönəlmiş normativ aktların işlənilməsinə başlanmışdır. Bu baxımdan ABŞ və Avropada təhsil sahəsində bir-neçə yanaşmalar inkişaf etmişdir: məktəblərin ayırmasının ləğv edilməsi (desegregation), təhsilin mümkünlüyünün genişləndirilməsi (widening participation), inteqrasiya, aktuallaşma (mainstreaming), inklüziya.

Aktuallaşma (mainstreaming) belə bir strategiyanı nəzərdə tutur ki, burada əlil şagirdlər öz həmyaşıdları ilə bayramları, müxtəlif tədbirləri keçirir, yəni sosial kontakt imkanlarını yüksəldir, lakin təlim almaq məqsədləri burada qoyulmur.

İnteqrasiya strategiyasında psixi və fiziki qüsurları olan uşaqların tələbat və ehtiyaclarının təhsil sistemi ilə uyğunluğu nəzərdə tutulur (özüdə əlil şagirdlər ümumi məktəbə gedərək, heç də həmişə digər uşaqlarla eyni siniflərdə oxumur).

İnklüziya – ən müasir termindir ki, burada məktəblərdə islahatlar və otaqların helə yenidən qurulması nəzərdə tutulur ki, onlar istisnasız olaraq bütün uşaqların ehtiyac və tələbatlarına uyğun olsun.

1875-1914-cü illərdə ABŞ-da mütləq orta təhsil sistemi qurulanda əlil və yaxud əqli qüsurları olan uşaqları ayrı-ayrı siniflərə yerləşdirirdilər. Həmin dövrdə Milli təhsil assosiasiyası Xüsusi təhsil departamentini yaratmışdır. Bu zaman intellektin ölçülməsi üçün müxtəlif testlər hazırlanmağa başlandı. Ölkəyə köçkün (emiqrant) axını gəlirdi, iş qüvvəsinin sayı artırdı, müxtəlif psixoloji nəzəriyyələr inkişaf edirdi. Bütün bu amillər məktəb sisteminə təsir etmişdir ki, burada fərdi fərqliliklərin və potensialın müəyyən edilməsi və ölçülməsi prinsipləri yer alırdı.

1960-70-ci illərdə məktəb sisteminə qarşı təngidlər səslənməyə başnladı. Məktəbi şagirdlərin uğursuzluğunda günahlandırırdılar. Bu problemlə məşğul olan ABŞ alimi Ceyn Merser öz tədqiqatlarında qeyd edirdi ki, hər bir sosial sistem insana yeni təriflər veriri, buna görə də əlillik sosial danışıqların məhsuludur.

1962-ci ildə Reynolds *xidmətlər kaskadı* anlayışını təklif edir, İ.Deno isə onu təkmilləşdirir. Bu kaskad və ya kontinuum ayrı-ayrı şagirdlərin tələbatlarının ödənilməsi üçün xidmətlərin konstruktiv modelidir ki, o ev şəraitində və yaxud xəstəxana yanında təhsildən tutaraq xüsusi məktəblər, xüsusi siniflər və nəhayət kütləvi məktəblərin adi siniflərinə qədər bütün növ təhsil formalarını nəzərdə tutur.

1977-ci ildə qəbul olunmuş "Bütün əlil uşaqlar üçün təhsil" Qanununda əlavə xidmətlərin siyahısı verilir ki, bunlar əlil uşaqlara ixtisas almaq üçün xüsusi təhsil almalarına köməklik edir: nəqliyyat, loqopediya, audiologiya, psixoloji xidmətlər, fizioterapiya, rekreasiya (bərpa, istirahət), okupasiyon

terapiya (occupational therapy - gündəlik işlər vasitəsilə terapiya), erkən müayinə, məktəb həkimi və yaxud tibb bacısı, şəktəb sosial işçisi, psixoloq və s. 1990-cı illərdə ABŞ-da bütün əlil uşaqların təhsili barəsində qanun qəbul olunur ki, bunun əsasına fərdiləşmiş təlim prinsipi qoyulmuşdur.

ABŞ alimi M.Reynolde xüsusi təhsil barəsində əlil uşaqların ümumi kütləvi məktəblərə daxil olunmasının tədricən baş verən təkamül prosesi kimi yazırdı. Bu tədqiqatçı məktəblərin yerləşdirilməsi, seçimi prinsipinin düzgün aparılması, kütləvi məktəblərdə təlim şəraitinin yaxşılaşdırılmasının nəticədə xüsusi məktəblərə və siniflərə göndərilən uşaq sayının azalmasına gətirib çıxaracağını deyirdi. Həmçinin o qeyd edirdi ki, müxtəlif əlilikləri olan uşaqlara təqdim olunan tədris proqramları "risk vəziyyətində" olan uşaqlar üçün tərtib olunmuş proqramlardan bir o qədər də seçilmir. Bundan əlavə, o güman edirdi ki, amerika cəmiyyətində məktəblərin yenidən qurulmasına maraq artmışdır ki, onlar bütün uşaqları daxil edəbilsinlər. 1980-90-cı illərdə aparılmış inklüziv təhsilin iqtisadi səmərə nəticələrinin tədqiqatı inteqrasiyalı təlimin faydalarını göstərir.

Bu gün əksər Qərb ölkələrində əlil uşaqların inteqrasiyasının vacibliyi barəsində ümumi bir fikir yaranmışdır. Dövlət və munisipal məktəblər xüsusi ehtiyacları olan uşaqlar üçün büdcədən əlavə maliyyə alır, buna görə də orta məktəblərin rəhbərliyi belə uşaqların sayının çox olmasında maraqlıdır.

Bizim ölkədə də bu sahədə müəyyən işlər görülür. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununda sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüquqlarının təmin edilməsi təsbit edilmişdir. Belə ki, Qanunda göstərilir ki:

– dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir;

– dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, iqtisadi və sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir;

– vətəndaşlar təhsilin növünü, təhsil müəssisəsini və tədrisin dilini sərbəst şəkildə seçmək hüququna malikdir;

– Azərbaycan dövlətinin təhsil siyasətinin əsasını, vətəndaşlar üçün keyfiyyətli təhsilin təmin edilməsi ilə yanaşı, təhsil islahatlarının aparılması prosesində milli azlıqları, qaçqınları, məcburi köçkünləri təmsil edən uşaqların, həmçinin sağlamlıq imkanları məhdud uşaqların keyfiyyətli təhsil alması üçün bərabər imkanların yaradılması təşkil edir.

İnklüziv təhsilin təşkili istiqamətində Təhsil Nazirliyi tərəfindən 2005-2009-cu illərdə "Xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud)

uşaqların təhsilinin təşkili ilə əlaqədar İnkişaf Proqramı" həyata keçirilmişdir. Proqrama əsasən sağlamlıq imkanları məhdud uşaqların təhsil hüququnun həyata keçirilməsi, inklüziv təlimə keçidin reallaşdırılması, təhsil müəssisələrində bütün uşaqların təhsili üçün bərabər imkanların yaradılması, dövlət himayəsində olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi, müvafiq təsnifata uyğun olaraq bütün kateqoriyadan olan sağlamlıq imkanları məhdud uşaqların ölkə üzrə qeydiyyatının aparılması və təhsilə cəlb edilməsi, xüsusi təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının müasir standartlara uyğunlaşdırılması sahəsində əhəmiyyətli işlər görülmüşdür.

Pilot təlim-tərbiyə müəssisələrinin rəhbərləri ilə keçirilmiş görüşlərdə uşaqların bu məktəb və bağçalarda adaptasiya işinin asanlaşdırılması üçün görüləcək tədbirlər müəyyən edilmişdir. Hər uşaq üçün ayrılıqda fərdi tədris planında uşağın bacarıqları nəzərə alınaraq, ən yaxın inkişaf zonası nəzərdə tutulmuş və bu zona üçün nəzərdə tutulan fəaliyyət növlərini uşağa yonəltmək üçün yollar, metodlar, əlavə xidmətlər müəyyən edilmişdir. Bütün bunlar böyük işlərin həyata keçirilməsindən xəbər verir.

Lakin helə görüləcək işlərimiz də az deyil. Müşahidələrdən görününür ki, xüsusi internat-məktəblərində təhsil heç də həmişə uşaqların ehtiyaclarına, maraqlarına qulluq etmir. Hazırda ölkəmizdə 60 mindən çox əlilliyi olan uşaq vardır. Onlardan 1105 xüsusi təhsil məktəblərində, 2664 xüsusi internat məktəblərində təhsil alır (onlardan 1353 nəfəri müəssisədə gecələyir), 7750 evdə təhsilə və yalnız 268 nəfər inklüziv təhsilə cəlb edilmişdir. Demək ki, bu sistem helə tam olaraq işləmir.

Sağlamlıq problemləri olan uşaqlar üçün təhsil xidmələrinin bazarı olduqca məhduddur, xüsusilə də kiçik şəhərlərdə və kəndlərdə sırf iqtisadi səbəblərdən əlil uşaqlar çox vaxt təhsil sistemindən kənarda qalırlar. Təcrübə göstərir ki, istənilən sərt təhsil sistemindən uşaqların müəyyən bir qismi atılmış olur, çünki sistem bucür uşaqların təlimə qarşı olan fərdi tələbatlarını ödəməyə hazır deyil. Belə uşaqlar ümumi sistemdən təcrid olunmağa məhkum olur. Bunu da dərk etmək lazımdır ki, bu hal uşaqların uğursuzluğu deyil, sistemin günahıdır. İnklüziv yanaşmalar belə uşaqlara təlimdə müvəffəqiyyət qazanmaq üçün imkanlar yarada bilər və bununla da onların daha yaxşı həyata, rifahlarının yüksəldilməsinə şans vermiş olar.

Bəziləri inklüziv təhsil terminini xüsusi təhsil ilə qarışdırır. Lakin inklüziv təlim əlil uşaqları "xüsusilikdən" azad etməyi, onları sağlam uşaqlarla birgə təhsil almalarını nəzərdə tutur. Yuxarıda qeyd etdiyimiz kimi bərabər münasibət, lakin xüsusi şərait – prioritet prinsip kimi çıxış etməlidir. İnklüziv təhsil formasının, hansı şəraitdə tətbiqinin daha məqsədəuyğun olduğu müəyyənləşdirilməlidir. Uşaqların əqli və fiziki imkanlarından, inkişaf